Hürriyyət

Müsahibə

SİZİN ÜÇÜN QƏZET

№17 (3215) 24 May / 2022-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# "Mən bu gün xoşbəxt aktyorlar sırasındayam"

## Əkbər Əlizadə: "Əlimi əlimin üstə qoyub otura bilmərəm ki, mənə nə vaxtsa Hollivuddan təklif gələcək..."

Müsahibimiz Azərbaycan Dövlət Akademik Musiqili Komediya Teatrının aktyoru, Azad Azərbaycan Televiziyasının aparıcısı, Respublikanın Əməkdar artisti, Prezident mükafatçısı Əkbər Əlizadədir. Onunla 45 illik yubileyi ərəfəsində sənət və yaradıcılığı haqda söhbətləşdik.



"Düşünürəm ki, bir aktyor hansısa şairdən bir bənd də olsa şeir bilmirsə, bu onun kasadlığıdır"

*(Əvvəli ötən sayımızda)*

**- Klassik və müasir yazarıarımızdan daha çox kimin əsərlərini oxumağı sevirsiniz?**

- Əli Əmirlinin, Salam Qədirzadənin, İlyas Əfəndiyevin, Anar müəllimin əsərlərini. Yəni yazıçılarımız çoxdur. Yazıçılarımızın əsərləriylə yanaşı, sizə deyim, həm də şairlərimizin şeirlərini oxuyuram. Mən düşünürəm ki, bir aktyor hansısa şairdən bir bənd də olsa şeir bilmirsə, bu onun kasadlığıdır. Dünya ədəbiyyatın da oxumalıyıq. 18-19 yaşlarımda incəsənət universitetində oxuyanda böyük Braziliya yazıçısı Qliyermo Fiqeredunun "Ezop" əsərində Ezopu oynadım. Cənnət xanım Səlimova deyirdi, baxma ki, Ezop 60 yaşlarındadı, aranızda yaş fərqi var, sən Ezopun yaşadıqlarını bir aktyor kimi hiss elə, o mənə bəsdir, çünki sabah sən teatrda işləyəndə, rollar veriləndə sənin üçün onlar su içmək kimi olacaq. Mən görürəm ki, bu doğrudan da belədir. Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" pyesində Nəcəf bəyi oynamışamsa, siz indi təsəvvür edin, ondan sonra oynayacağım rollar mənim üçün o qədər də çətin olmamalıdır.

**- Aktyorların bir qrupu ailəsini dolandırmaq məqsədiylə toylarda tamadalıq da edirlər. Siz buna necə baxırsınız?**

- Yaxşı baxıram. Çox aktyorlar deyir ki, mən toylara getmirəm, onların toy aparmaq qabiliyyətinə şübhə edirəm. Bəyəm toy aparmaq eyib sayılır? Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Əlibaba Məmmədov kimi nəhəng muğam ustadları məclislərdə ifa ediblər, iştirak ediblər. O məclislərdə muğam xiridarları onları necə də diqqətlə dinləyiblər. Muğamdan onların anlayışları olub. Rəfael Dadaşovun özü də, Yaşar Nuri də, Telman Adıgözəlov da toylarda, el şənliklərində aparıcılıq ediblər. Sadəcə olaraq, bunun öhdəsindən gəlmək lazımdır. Amma tamaşaçıların gözündə adiləşməyəsən deyə, düşünürəm ki, filmlər çəkilsə, elə o vaxtımı filmlərə sərf edərəm. Televiziya tamaşaları çəkilsə, televiziya tamaşalarına çəkilərəm. Mütəmadi olaraq festivallar olsa, festivallara gedərəm. Amma aktyorun hər bir günü onun üçün qızıldır. Fürsətdən istifadə etmək lazımdır. Mən əlimi əlimin üstə qoyub otura bilmərəm ki, mənə nə vaxtsa Hollivuddan təklif gələcək. Yəni yaşananlarla kifayətlənmək lazımdıe. Mən bu gün xoşbəxt aktyorlar sırasındayam ki, Prezidentimiz tərəfindən 30 yaşımda Respublikanın Əməkdar artisti fəxri adına layiq görülmüşəm. Uzun illər əhəmiyyətli tədbirlərin aparıcısı olmuşam. On ilə yaxındır ki, fasilələrlə də olsa Prezident təqaüdünə layiq görülmüşəm. Bu gün də Prezident mükafatçısıyam və bununla da fəxr edirəm.

**- Bir aktyor kimi, Azərbaycan seriallarının səviyyəsi sizi qane edirmi?**

- Bilirsiniz, təzə- təzə başlayanda büdrəmələr var idi. O büdrəmələr nədən ibarət idi: görürdün ki, aktyorlar özlərini doğrulda bilmirlər. Əlalxüsus da dramatik janrlarda çəkilən seriallarda. Amma bu gün Rövşən İsaqın çəkdiyi seriallar istər "Pərvanələrin rəqsi" olsun, istər "Yuxu kimi" serialı olsun, görün, nə dərəcədə tamaşaçını ardınca çəkib aparmaq qüvvəsinə malikdir. Həm də çəkildiyim "Qız atası" serialından aktyor olaraq çox razıyam. Bilirsiniz, niyə? Həm sujet xətti, həm yazılan ssenari, həm də aktyorların oyun tərzi. Tərəfmüqabillərim məni, mən də onları qane etdiyim üçün çox razıyam. Tamaşaçılardan da bu sözləri eşidirəm. Bilirsiniz ki, tamaşaçı gözü tərəzidir. Nə xoşa gəlmirsə tamaşaçılar onu söyləyəcəklər, onu deyəcəklər. Şükürlər olsun ki, bəyənilir.



**- Maraqlıdır ki, bəzi tamaşaçılar 10-20 manat verib teatra bilet almırlar, amma KVN-lərə 100-200 manat xərcləyirlər. Bu problemin kökünü nədə görürsünüz?**

- Reklam, reklam, yenə də reklam. 21 mayda - mənim ad günümdə 45 illiyimlə bağlı "Qızıl toy" tamaşası oynanılacaq. Neçə tamaşaçılar mənə dedilər ki, "İticket.az" saytına daxil olduq ki, biletlər əldə edək, hələ də biletlər satılmır. Reklam olmalıdır. Bilirsiniz ki, reklam çox böyük xüsusiyyət daşıyır. Reklam olmadısa tamaşaçı hardan bilsin ki, teatrın repertuarında hansı tamaşa, hansı vaxtda oynanılacaq?! Ya gərək gedib teatrın qarşısından keçsin, ya da "İnstagram" səhifəmizə nəzər salsın. Amma televiziyalarda mütəmadi olaraq çarxlar çəkilsə, təqdim olunsa mən düşünürəm ki, bunun mütləq şəkildə müsbət nəticəsi olacaq. Siz KVN-i vurğuladınız. Bir fərqi də deyim sizə. Tutaq ki, mən "Qızıl toy" tamaşasında oynayıram. Bu ay tamaşaya gələ bilməyən tamaşaçı öz-özlüyündə yəqin edib, güman edib ki, mən gələn ay gedə bilərəm. Gələn ay gedə bilmədim, o bir ay gedə bilərəm. Amma adını çəkdiyiniz KVN tamaşaları ildə bir dəfə oynanılır. Bir dəfə də oynanıldığı üçün tamaşaçılar da arzulayırlar ki, o konsertə düşsünlər. Bunun da bir fərqi var.

**- Aktyor, müğənni, yoxsa aparıcı Əkbər? Sizə ən çox hansı doğmadır?**

- Əlbəttə ki, aktyorluq. Çünki mənim ilk peşəm aktyorluqdur. Aktyorluq sənəti çox çətin peşədir. Təsəvvür edin ki, müğənnilərimizin sırasında bir neçəsi filmlərdə, teatr səhnəsində aktyorluq da, aktrisalıq da etdilər. Onlar özləri də etiraf etdilər ki, aktyorluq qat-qat çətin peşədir. Bilirsiniz ki, teatr sənəti incəsənət peşələri arasında çox ağır sənətdir. Və nə baş verirsə anında, məqamında tamaşaçının gözü qarşısında baş verir. Bu film deyil, bu serial deyil, bu televiziya tamaşası deyil ki, bir dublda çəkilsin, ikinci, üçüncü dubl da çəkilsin, rejissor aktyordan istədiyini ala bilsin. Sən necə oynadınsa bəlkə də o tamaşaçı ömründə bir dəfə gəlir tamaşaya. Bəlkə ondan sonra daha heç gəlməyəcək tamaşaya baxmağa. Sən rolu necə oynadınsa tamaşaçının da yaddaşında o cür qaldın. Ona görə də səhnəyə çıxan hər aktyor, hər aktrisa hər tamaşada özünü isbatlamalıdır, tamaşaçılar qarşısında sübut etməlidir. Tamaşaçılar da görməlidir ki, aktyor, aktrisa nəyə qadirdir. Musiqili teatrda işlədiyimdən bizdə ifaçılıq, musiqi də öndədir. Aktyorluqla paralel, sən ifa etməyi də bacarmalısan. Bir az əvvəl də söylədim, əgər ifa edə bilmirsənsə, əlalxüsus da tək ifa etməklə deyil, sən oynadığın obrazın xarakterini mahnıda göstərməyi bacarmalısan.

Aparıcılığın özü də bir fitri istedaddır, müştəbehlikdən uzaq olsun. Əlalxüsus da canlı proqramı aparmaq. Bəzən elə məqamlar yaşanır ki, görürsünüz, qonaq sənin sualına başqa bir fikirlə cavab verir, onun fikri haçalanır, fikri ikiyə bölünür. Sən onu təzədən o relsə qoymalısan, hansı sözdə fikri yayınmışdısa onu həmin yerə qaytarmalısan. Elə sualla ki, ona o suallar aydın olsun.

Bilirsiniz ki, təqvimdə bizim 20 yanvarla bağlı, Xocalı günü ilə bağlı proqramlar da təqdim olunur. Baxmayaraq ki, mənim verilişim musiqili, əyləncəli verilişdir, mən o cür verilişlə də çıxış edirəm. Mən bir yerdə dayanmağı xoşlamıram. Aktyor təkcə komik rollar oynamamlı, həm də dramatik rollar oynamalıdır. Mən dram, kino fakultəsini bitirdiyimə görə bir az əvvəl də vurğuladım, Akademik Milli Dram Teatrında da, Cənnət xanımın yaratdığı Kamera Teatrında da çalışmışam, cürbəcür rollar oynamışam, bundan sonra da təklif etsələr, böyük məmuniyyətlə faciəvi janrda tamaşalarda oynayaram.

**- Əkbər müəllim, siz eyni zamanda müğənniləri parodiya edirsiniz. Nə vaxtsa bunun üçün sizdən inciyənlər olub?**

- Qətiyyən. Əksinə, Mirzə Babayev, Brilliant Dadaşova, Nadir Qafarzadə, Qədir Rüstəmov, Zeynəb Xanlarova, Sevda Ələkbərzadə çox yaxşı qarşılayıblar. Bilirsiniz, parodiya edəndə onu karikatura şəkilində təqdim etməməlisən, onu gülüş hədəfinə çevirməməlisən. Mən onların öz səsləriylə oxumağa cəhd göstərmişəm. Onların səsləri üstündə parodiya etməmişəm. Onların səsini parodiya etmişəm. Əgər sən onların özünü göstərməyə çalışırsansa, əlbəttə, xoş gələr. Yox, inciyən olmayıb. Allah rəhmət eləsin, Zöhrə Abdullayevanı parodiya etmişəm. Sonra Manananı parodiya etmişəm(Gülür.) Bir-bir yadıma düşür.

**- İllərdi ki, Akademik Dövlət Musiqili Teatrda aparıcı səhnə ustalarından birisiniz. Özünüz bir teatr qurmaq istərdinizmi?**

- Özüm tamaşa qurmaq istərdim, teatr yox. Teatr yaratmaq çətindir. Bilirsiniz necədir, şahidi olmuşuq, bir teatrı, tamaşanı əldə saxlamaq üçün kadr arxası çox çətinlikləri olur. Amma tamaşa qurmaq istərdim. Fikrimdə də var. Düşünürəm ki, bir aktyor olaraq mən özüm obrazın sətiraltı, şüuraltı məqamlarını üzə çıxara bilirəmsə, özümdən savayı tərəf müqabilim məndən nə istəyir, tələbləri nədir və yaxud mənim ona münasibətim, bir də Cənnət xanımın mənə dörd il ərzində dərs deməsi mənim çox köməyimə çatıb. Çünki o, aktyorlara dərs deməklə yanaşı, həm də bizimlə eyni kursda paralel olaraq rejissorlara da dərs deyirdi. Cənnət xanımdan çox şeyləri görüb-götürmüşəm. İnşallah, qismət olar, günlərin birində arzum reallaşar.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**